

## Tahirov Cəfər Nəriman oğlu
## (1948-2023)

2023-cü il sentyabr ayının 28-də texnika elmləri namizədi Cəfər Nəriman oğlu Tahirovun 75 yaşı tamam oldu. O, 1971-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mədən fakültəsini bitirdikdən sonra keçmiş "Orconikidzeneft" NQÇİ-də neft-qaz hasilatı üzrə operator və mühəndis vəzifələrində işləmişdir.

1973-1976-cı illərdə Moskvada Ümumittifaq Neft-Qaz Elmi-Tədqiqat İnstitutunun aspiranturasında əyani təhsil almışdır. 1976-cı ildə Azərbaycan Neft Qaz Sənayesi Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutuna (AzNQSDETLİ) kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdur.

1977-ci ildə t.e.d., professor M.D.Rozenberqin rəhbərliyi altında "Neft-qaz kondensat sistemlərinin süzülməsinin eksperimental tədqiqi" mövzusunda dissertasiya işini müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsini almışdır.

1979-1985-ci illərdə AzNQSDETLİ-də böyük elmi işçi vəzifəsində çalışmış. 1985-ci ildən isə həmin institutun "Layların və quyuların hidrotermodinamik tədqiqi" laboratoriyasına rəhbərlik etmişdir. Daha sonralar SOCAR-ın "Neftqazelmitədqiqatlayihə", AMEA-nın "Geologiya", ADNSU-nun nəzdində "Neftin, qazın geotexnoloji problemləri və Kimya" Elmi-Tədqiqat İnstitutlarında işləmiş, ADNSU-nun Neft-qaz yataqlarının geologiyası kafedrasında mühazirə oxumuşdur.

C.N. Tahirov 12 ixtiranın, 100-dən artıq nəşr olunmuş elmi əsərin, bir çox təlimat kitabçasının və rəhbər sənədlərin müəllifi, 200-dən artıq elmi-tədqiqat işinin rəhbəri olmuşdur. "Neft-qaz-kondensat yataqlarının işlənməsi zamanı layda cərəyan edən fiziki-kimyəvi proseslər"adlı kitabın müəllifidir.

Elmi işlərinin əsas istiqaməti lay flüidlərinin termodinamik xassələrinin təyini olmuşdur. Məşğul olduğu sahələr – ümumilikdə lay fizikası, lay flüidlərinin termodinamik xassələrinin müxtəlif qurğularda təyini və təhlili, neft-qaz quyularının hidrodinamik tədqiqi, lay təzyiqləri və temperaturlarının ölçülməsi, bu parametrlərin bərpasının izlənməsi, alınan nəticələrin quyuların optimal iş rejimlərinin qoyulmasında tətbiqi, quyu hasilatlarının (neft, qaz, su üzrə) ölçülməsi, əldə olunan parametrlərin neft və qaz ehtiyatlarının hesablanmasında, neftveriminin artırılması üsullarının səmərəliyinin qiymətləndirilməsində, yataqların səmərəli işlənməsində və s. istifadə edilməsindən ibarət olmuşdur.

İlk dəfə olaraq, neft-qaz-kondensat sistemlərinin birgə süzülməsinin eksperimental tədqiqatlarını, o cümlədən SSRİ neft-qaz-kondensat regionlarının işlənməsi zamanı bir sıra termohidrodinamik məsələlərin eksperimental tədqiqinin aparılması, qaz, kondensat və neftləri səciyyələndirən zəruri parametrlərin öyrənilməsi, quyuların kompleks tədqiqatlarının aparılmasına rəhbərlik etmişdir. O, bir neçə termodinamik avtoklavın orijinal konstruksiyasını təklif etmişdir. Onun rəhbərliyi altında UİPN-AzNSETLİ qurğusu işlənilərək istifadəyə verilmişdir. Azərbaycan və SSRİ-nin neft regionlarında geniş istifadə olunan UD-1 tipli portativ hasilatölçənin müəlliflərindən biri və bir sıra orijinal konstruksiyalı patentləşdirilmiş dərinlik cihazlarının (termoqraf, mano-

metr və s.) müəllifi olmuşdur.

Tahir müəllim bir çox seminar və konfranslarda neft-qaz yataqlarının işlənməsi problemlərinə həsr olunmuş elmi məruzələrlə çıxış etmişdir. Vyetnam, Koreya, Pakistan, Qazaxıstan, Türkmənistan, Hindistan və Gürcüstan mütəxəssislərinə ixtisas artımı məqsədilə mühazirələr oxumuşdur. BP, LUKOIL, AIOC, KUSTER, TOTAL ELF, PENNZOIL kimi beynəlxalq şirkətlərlə iş təcrübəsinə malik idi.

C.N. Tahirov SSRİ Mülki Müdafiə əlaçısı medalı və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Fəxri Fərmanı"ları ilə təltif olunmuşdur. "Əmək veteranı" idi.

Cəfər müəllim yüksək intellektə malik, xoşxasiyyət, mehriban, səmimi, sadə və xeyirxah bir şəxs həmçinin səmimi dost, gözəl ailə başçısı idi.

Cəfər Nəriman oğlu Tahirovun xatirəsi onu tanıyanların qəlbində əsl ziyalı, alim, alicənab, təvazökar və kübar insan kimi daim yaşayacaqdır.

**"Neftin, qazın geotexnoloji problemləri və Kimya" ETİ-nin rəhbərliyi və kollektivi**